BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№3 Humanitar elmlər seriyası 2015*

UOT 94(470)".9..."

# XIX ƏSRİN SONU - XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ RUSİYA-ABŞ MÜNASİBƏTLƏRİ

**S.O.MUSTAFAYEVA**
***Bakı Dövlət Universiteti***
***msxara31@rambler.ru***

*XIX əsrin sonlarından etibarən Rusiya-ABŞ münasibətləri tədricən kəskinləşməyə başlayır. XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya-ABŞ münasibətlərinə Uzaq Şərqdə və Mancuriyada siyasi və iqtisadi maraqlarının toqquşması, 1904-1905-ci illər Rusiya-Yaponiya müharibəsi və 1905-1907-ci illər Birinci rus inqilabı zamanı ABŞ-ın Rusiyaya qarşı düşmən mövqeyindən cıxış etməsi, eləcə də ABŞ-a Rusiya yəhudilərinin mühacirət etməsi təsir edən əsas amillərdən biri idi.*

**Açar sözlər:** Rusiya, ABŞ, münasibətlər, Uzaq Şərq, Mancuriya

XIX əsrin sonu - XX əsrin əvvəllərində Rusiya-ABŞ münasibətlərinin inkişafı çox çətin bir mərhələdən keçmişdi. ABŞ-ın Rusiya imperiyasının tərkibində olan Uzaq Şərq bölgəsinə marağının olması Rusiya-ABŞ münasibətlərinin gərginləşməsini qaçılmaz edirdi. XIX əsrin son rübündə Rusiya imperiyasının sərhədlərində hökm sürən mübahisələrin artması, qaçaqmalçılıqda Rusiya-ABŞ münasibətlərini gərginləşdirirdi. XIX əsrin 80-ci illərində Uzaq Şərqdə münasibətlərin kəskinləşməsi Rusiyanın bu mübarizəyə hazır olmadığı dövrə təsadüf edir. 1858-1860-cı illərdə Çin ilə imzalanmış müqavilələrin şərtlərinə əsasən Rusiyaya qaytarılmış Amuryanı torpaqların (Priamurye) və Primoryenın iqtisadi cəhətdən inkişafı çox ləng gedirdi. Amur və Primorye vilayətləri, Kamçatka və Saxalində yalnız 376 min əhali yaşayırdı. Bu regionlarla müqayisədə daha inkişaf etmiş Zabaykalyedə isə 672 min insan məskunlaşmışdı. Belə böyük regionda əhalinin az məskunlaşması, ilk növbədə yolların pis vəziyyətdə olması, sənaye və kənd təsərrüfatının zəif inkişaf etməsi ilə əlaqədar idi.

1894-cü ilə qədər Rusiya öz mövqeyinin zəif olduğunu bilərək qonşuları - Çin və Yaponiya ilə dostluq əlaqələri yaratmağa çalışırdı. Eyni zamanda bu ölkələrlə ticarət əlaqələrini inkişaf etdirirdi. Ticarət, azad ticarət (porto-franko) hüququna malik olan Vladivostok şəhəri vasitəsilə aparılırdı.

Rusiya Uzaq Şərqdə əsas düşməninin İngiltərə olduğuna əmin olaraq sürətlə inkişaf edən Yaponiyanın regiondakı təcavüzkar fəaliyyətini düzgün

qiymətləndirmirdi. İngiltərənin hücumunu dəf etməyə hazırlaşan Rusiya hökuməti XIX əsrin 80-ci illərindən Trans-Sibir dəmir yolunun tikintisini planlaşdırsa da, dəmir yolunun tikintisinə yalnız 1890-cı ildən sonra başladı. 1891-ci ildə hökumət Sankt-Peterburqla Uzaq Şərqi birləşdirən Sibir dəmir yolunun tikintisinin başlanması haqqında qərar qəbul edir. Qısa müddətdə uzunluğu təxminən 7,5 min verst olan Çelyabinsk-Vladivostok magistral yolunun bir hissəsi tikilməli idi (1, 703). Maliyyə naziri S.Y.Vitte 1892-ci ildə Sibir dəmir yolunun yalnız strateji deyil, həm də iqtisadi məqsədlər üçün istifadəsi haqqında proqram təqdim etdi. Bu, həm də Çin və Koreyaya iqtisadi cəhətdən müdaxilə etmək mahiyyəti daşıyırdı. Lakin sonralar regionda yaranan siyasi vəziyyət bu planın zəifliyini üzə çıxardı. Artıq 1894-cü ildə Yaponiya Koreyaya qoşun yeridir və Çin ilə müharibəyə başlayaraq böyük uğur əldə edir. 1895-ci ildə imzalanmış Simonoseki müqaviləsinin şərtlərinə əsasən, Lyaodun yarımadası və bir sıra adalar Yaponiyanın əlinə keçir. Çin, Yaponiyanın xeyrinə Koreya üzərindəki protektoratlığından da imtina edir. Rusiya hökumətinin təşəbbüsü ilə üç böyük dövlət - Almaniya, Fransa və Rusiya Yaponiyaya ultimatum göndərərək Lyaodun yarımadasını qaytarmağı tələb edirlər. Yaponiya geri çəkilmək məcburiyyətində qalır. Bu isə Yaponiyada böyük narazılıqla qarşılanır və Yaponiya hökumətinin Rusiya ilə müharibəyə hazırlaşmaq məqsədilə on illik plan qəbul etməsi ilə nəticələnir.

XIX əsrin sonu - XX əsrin əvvəllərində II Nikolayın xarici siyasətinin əsas istiqamətini "Uzaq Şərqdə mövqelərinin gücləndirilməsi" təşkil edirdi (6, 118). Rusiya 1895-ci ildə Yaponiyaya təzminatın ödənilməsi məqsədi ilə Çinə 150 mln. rubl kredit verir. Elə həmin ildə Rusiya-Çin bankı yaradılır. 1896-cı ildə II Nikolayın tacqoyma mərasimində iştirak etmək üçün Çinin nümayəndəsi Li-Xuncjan Moskvaya gəlir. Onunla Yaponiyaya qarşı müdafiə ittifaqı haqqında, Çita və Vladivostok şəhərlərini qısa yolla birləşdirmək üçün Mancuriya ərazisində Şərqi Çin dəmir yolunun (ŞÇDY) tikintisinə dair Moskva müqaviləsi imzalanır. Konsessiyanın verilməsilə bağlı danışıqları maliyyə naziri Vitte aparırdı. Bu da Uzaq Şərqin iqtisadi baxımdan Rusiya hökuməti üçün əhəmiyyətinin göstəricisi idi. Konsessiya Rusiya-Çin bankına 80 illik müddətinə verilmişdi. 1897-ci ildə Şərqi Çin dəmir yolunun tikintisi başladı və 1901-ci ildə isə artıq istifadəyə verildi. Şərqi Çin dəmir yolunun ümumi uzunluğu 2,5 min km idi. Konsessiya Rusiya ücün sərfəli idi. Mancuriya ərazisindən keçən yol nəinki Sibir yolunu qısaldırdı, hətta onun tikintisini sürətləndirir və həm də Rusiyanın Çinin şimal-şərqində möhkəmlənməsi üçün də şərait yaradırdı (1, 704).

1897-ci ildə Rusiya gəmilərini Port-Artura yeridir (4, 55). 1898-ci ilin martında Lyaodun yarımadasının (2784 kv. verst) 25 illik icarəsi və həmin ilin iyun ayının 24-də isə Port-Artur və ŞÇDY arasında dəmir yolunun tikintisi ilə bağlı Çinlə müqavilə imzalandı. II Nikolay Port-Arturun icarəsini Yaponiya, Böyük Britaniya və Almaniyanın Çini bölüşdürmə planlarına cavab kimi görürdü. Beləliklə, Rusiya Sakit okean donanması üçün hərbi əhəmiyyətli Port-

Arturu və ticarət limanı olan Dalniyi əldə edir (4, 60-61). Rusiyanın Çin və Mancuriyada siyasi fəaliyyətinin artması, həmçinin Çin bazarına rusların nüfuz etməsi ABŞ-ı narahat edirdi. Çünki Uzaq Şərqdə hər iki tərəfin maraqları toqquşurdu.

1894-cü ildə Yaponiya və Çin arasında müharibənin başlanması Uzaq Şərq və xüsusilə Çində böyük dövlətlərin təsir dairələrinin yenidən artmasına gətirib çıxartdı. Bu, ABŞ-ın maraqlarına uyğun olmasa da, onun böyük dövlətlərin planlarına qarşı çıxmaq imkanı hələ yox idi. 1899-cu ilin payızında ABŞ-ın dövlət katibi C.Hey dünyanın qabaqcıl dövlətlərinə Çinlə bağlı ABŞ-ın fikirlərini özündə cəmləşdirən nota göndərdi. Bu doktrina tarixdə "Heyin doktrinası" və ya "açıq qapı doktrinası" adı ilə məlumdur. Amerikalıların bu doktrinasının mahiyyəti Çin bazarının orada ticarət etmək istəyən bütün ölkələrə açıq olması idi. Hər kəs Çində bərabər hüquqa malik olmalı idi. Guya bu doktrina Çinin rifahı üçün idi (6, 111). Amerikalılar bilirdilər ki, Çin üzərində nəzarət uğrunda digər böyük dövlətlərlə aparılan iqtisadi rəqabətdə qalib gələcəklər (6, 112). Hey doktrinası Uzaq Şərqin ABŞ-ın xarici siyasətinin ən mühüm istiqamətlərindən biri olduğunu sübut etdi.

1901-ci ildə hakimiyyətə gələn T.Ruzvelt (1901-1909), Heyin doktrinasını dəstəklədi, lakin o, həm də Çinə daxil olmaq üçün güc tətbiq etməyin mümkünlüyünü də istisna etmirdi. Ruzvelti əhatə edənlər Uzaq Şərqdə ABŞ-ın əsas rəqibinin Rusiya olduğunu hesab edirdilər. Artıq 1901-ci ildə Çində baş vermiş iğtişaşlardan istifadə edərək, ABŞ Hebey əyalətində möhkəmlənməyə başladı (6, 113). Lakin bu cəhd uğursuz oldu. Yaponiya da Çində apardığı uzunmüddətli planlarından imtina etmək niyyətində deyildi və Rusiyanı Çində özünə əsas rəqib kimi görürdü.

1900-cü ildə Rusiya digər böyük dövlətlərlə yanaşı Çindəki "İxetuan" ("Boksçu") cəmiyyəti tərəfindən baş vermiş üsyanın (1899-1901) yatırılmasında iştirak edirdi. 1900-cü ilin oktyabr ayında rus qoşunları Mancuriyanı işğal edir, üsyan yatırılır (1901-ci il) və Çin üzərinə böyük təzminat qoyulur (3, 32). Rusiya Xarici İşlər Nazirliyi bütün dövlətlərə Pekindən qoşunlarını çıxartmağı təklif edir. XİN-nin məlumatında göstərilirdi ki, Rusiya yalnız müvəqqəti olaraq üsyançılar tərəfindən zərər çəkmiş ŞÇDY-nu qorumaq üçün Mancuriyada qoşunlarını saxlayacaq və daha sonra qoşunlar oranı tərk edəcəklər. Artıq 1900-cü ilin avqust ayında general Leneviçin komandanlığı altında rus qoşunları Pekindən çıxarılır.

Rusiya Xarici İşlər Naziri A.N.Kuropatkinin fikrinə görə, yaxın illərdə Rusiyanın Çinə qarşı siyasəti belə olmalıdır: 1) Çin ilə iqtisadi əlaqələrin (xüsusilə şimal əyalətləri ilə) inkişafı; 2) Çində Avropa dövlətləri ilə qarşıdurmaların mümkün qədər qarşısını almaq, bunun üçün Çinin şimal torpaqları ilə məhdudlaşmaq (3, 30-31). Lakin Rusiyada Mancuriyadan rus qoşunlarının çıxarılmasının əleyhinə olan qüvvələr də mövcud idi. Mancuriya və Koreya sərhədində meşə mühafizəsi adı altında Rusiya əsgərləri yerləşdirilmişdi. Bütün bunlar Yaponiya, ABŞ və İngiltərənin narazılıgına səbəb olurdu. Yapo-

niya və Böyük Britaniyanın Rusiyaya qarşı mövqelərinin üst-üstə düşməsi onların yaxınlaşmasına səbəb oldu və nəticədə 1902-ci ilin yanvar ayında onlar arasında ittifaq müqaviləsi imzalandı. Uzaq Şərqdə öz mövqeyini gücləndirmək üçün ABŞ hökuməti də Yaponiya ilə yaxınlaşmağa başlayaraq, Yaponiyaya 450 milyon dollar borc verir (6, 113). ABŞ mallarının Yaponiyaya ixracı xeyli artır. ABŞ və Böyük Britaniya Yaponiyaya kredit verməklə bərabər, həm də onun üçün gəmilər tikir və silahla təmin edirdilər. ABŞ ümid edirdi ki, Rusiya və Yaponiya arasında münaqişə birincisinin hərbi məğlubiyyəti və Çindən çıxarılması ilə, ikincisinin isə tükənməsi ilə nəticələnəcək və bu yolla ABŞ asanlıqla Uzaq Şərqdə möhkəmlənəcəkdir. Lakin amerikalılar digər böyük dövlətlər kimi, Yaponiyanın imkanlarını lazımınca qiymətləndirə bilməmişdilər.

1903-cü il ərzində Yaponiya Rusiyaya bir neçə nota göndərir. Yaponiya tərəfi Mancuriyadan rus qoşunlarının çıxarılmasını və Koreya üzərində hüquqlarının tanınmasını tələb edir. 1904-cü il yanvarın 27-də Rus-Yapon müharibəsi başlayır. 1904-1905-ci illər Rus-Yapon müharibəsinin əvvəlində ABŞ-ın rəsmi olaraq neytrallıq elan etməsinə baxmayaraq, prezidentin özü yaponların iqtisadi, hərbi uğurlarına heyran qalaraq onları "gözəl insanlar" hesab edir və açıq şəkildə Yaponiyanın mövqeyini dəstəkləyirdi (2, 326). Lakin Rus-Yapon müharibəsinin başlamasından sonra, quruda və dənizdə hərbi əməliyyatların artması, eləcə də Rusiyanın məğlubiyyətindən və Yaponiyanın Asiyada mövqeyinin güclənməsindən ehtiyat edən ABŞ narahat olmaga başladı. Məhz buna görə də müharibənin sonunda ABŞ və İngiltərə Yaponiyanı dəstəkləməkdən və ona yeni kredit verməkdən imtina etdilər. Yaponiya isə böyük dövlətlərin fikir ayrılıqlarından məharətlə istifadə edərək, 1895-ci ildə olduğu kimi, Yaponiya əleyhinə cəbhənin yaranmasına imkan vermədi. T.Ruzvelt də bu fikir ayrılıqlarından istifadə edərək, Rusiya və Yaponiya arasında sülh danışıqlarında vasitəçi kimi çıxış etməsini təklif etdi. Bunun müqabilində Yaponiya Çində "açıq qapı" siyasəti prinsiplərinə gələcəkdə də riayət edəcəyini bildirdi (6, 114).

ABŞ-ın vasitəçiliyi ilə 1905-ci il avqustun 23-də ABŞ-ın Portsmut şəhərində (Nyu-Hempşir ştatı) Rusiya və Yaponiya arasında sülh müqaviləsinin imzalanması üçün danışıqlar başladı. Amerika prezidenti danışıqları öz qərargahından izləyirdi və demək olar ki, yalnız müqavilənin imzalanması zamanı Portsmuta gəldi. Danışıqlar gərgin vəziyyətdə gedirdi. Qərb tarixçilərinə görə, onların "müsbət nəticələnməsi" yalnız T.Ruzveltin səyi ilə baş verdi (2, 327). Guya Ruzveltin təkidi ilə Yaponiya Rusiya üçün ağır olan sülh müqaviləsinin ilk şərtlərindən imtina etdi. Əslində isə S.Vittenin başçılıq etdiyi Rusiya nümayəndə heyəti yaponlara böyük bir təzminat ödəməkdən, Saxalini (ətraf adaları ilə birlikdə - S.M.) tamamilə güzəştə getməkdən, neytral limanlara sığınan rus hərbi gəmilərinin verilməsindən və Uzaq Şərqdə dəniz donanmasının məhdudlaşdırılmasından (həmçinin Vladivostok şəhərinin hərbi istehkamlarının aradan qaldırılmasından - S.M.) imtina etməyi bacardı (3, 45). Bağlanmış müqaviləyə əsasən, Rusiya Mancuriyada nüfuzunu və Saxalinin

cənub hissəsini (50-ci paralelə qədər), Port-Arturdan Çançun stansiyasına qədər olan dəmir yolunu itirirdi. Yaponiyaya Lyaodun yarımadasını icarəyə verir və həm də yapon balıqçıları Rusiya sahillərində balıqçılıqla məşğul olmaq hüququ əldə edirdilər.

Rusiya-Yaponiya müharibəsi zamanı və xüsusilə bu münaqişənin həllində ABŞ-ın mövqeyi Rusiya imperiyasının siyasi elitasının böyük narazılığına səbəb oldu.

"ABŞ-ın xarici siyasət tarixi" kitabının müəlliflərinin fikrincə, T.Ruzveltin ABŞ-ın Yaponiya ilə yaxınlaşması yolu ilə Uzaq Şərqdə möhkəmlənmək siyasəti özünü doğrultmadı (6, 115). Yaponiya ABŞ ilə əlaqələr yaradarkən, ilk növbədə öz maraqlarını nəzərə alırdı. Uzaq Şərqdə Rusiyanı sıxışdıran Yaponiya, müharibə nəticəsində əldə etdiyi nailiyyətləri heç bir dövlətlə bölüşmək niyyətində deyildi. Yaponiyanın Çin siyasətində əsas kimi Hey doktrina prinsiplərini qəbul etməyə hazır olması haqqında Bəyannaməsinin sözdən başqa bir şey olmadığı ortaya çıxdı.

ABŞ-ın güclü donanma yaratmaq haqqında qərarı prezidentin xarici siyasətdə elan etdiyi "böyük dəyənək" siyasəti kimi tanınan prinsipə uyğun gəlirdi. Yeni tikilmiş gəmilərdən ibarət donanma eskadrası 1907-ci ildə Ruzveltin əmri ilə dünya turuna göndərildi. Bu, dünyanın aparıcı dövlətlərinə, xüsusən Rusiya və Yaponiyaya Sakit okean və Uzaq Şərqdə öz maraqlarını müdafiə etmək üçün ABŞ-ın imkanlarını nümayiş etdirmək üçün lazım idi (6, 115). Lakin ABŞ-ın quru qoşunlarında vəziyyət heç də yaxşı deyildi. 1908-ci ildə bağlanmış Takahiro-Ruta müqaviləsi ilə ABŞ Yaponiyanın əldə etdiyi əraziləri (Filippin, Havay, Formosa və s.) tanıdı. Beləliklə, Birinci dünya müharibəsi ərəfəsində ABŞ Uzaq Şərq istiqamətində istədiyi nailiyyətləri əldə edə bilmədi.

XIX əsrin sonu – XX əsrin əvvəllərində ABŞ və Rusiya arasındakı münasibətləri yalnız Uzaq Şərq problemi gərginləşdirmirdi. Bir tərəfdən, XIX əsrin sonlarından Rusiya öz iqtisadiyyatını inkişaf etdirmək üçün xarici investisiyaları cəlb etməyə və bu məqsədlə Rusiya ABŞ-ın maliyyə institutları ilə əlaqələr qurmağa çalışırdı. XIX əsrin sonu - XX əsrin əvvəllərində Morqan tərəfindən nəzarət edilən bankir qrupu ilə Rusiya arasında əməkdaşlıq haqda ardıcıl olaraq danışıqlar gedirdi, lakin fikir ayrılıqları və digər səbəblər əməkdaşlığa mane olurdu.

ABŞ-ın siyasi dairələrində Rusiyanın anti-demokratik, mürtəce imperiya olması haqda fikirlər formalaşmışdı. Bunun əsas səbəbi XIX əsrin 30-60-ci illərində baş qaldırmış "Polşa məsələsi" idi. Vyana konqresinin qərarı ilə Polşa ərazilərinin böyük bir hissəsi Rusiya imperiyasının tərkibinə daxil oldu. Polşa torpaqlarında tez-tez üsyanlar baş verir və hökumət bu üsyanları amansızcasına yatırırdı. "Polşa məsələsi" tezliklə Rusiya diplomatiyası üçün başağrısına çevrildi, çünki qərb dövlətləri bu məsələdən Rusiyaya təzyiq göstərmək üçün istifadə edirdilər. "Polşa məsələsi"nin gərginləşməsi ilə həm ABŞ ictimaiyyəti, həm də rəsmi Vaşinqton Rusiyanı tənqid etməyə başlayırdı ki, bu da ikitərəfli

münasibətlərin formalaşmasına mənfi təsir göstərirdi (6, 116).

Bundan başqa, XIX əsrin sonunda Rusiya imperiyasının xüsusən qərb quberniyalarından Amerika Birləşmiş Ştatlarına gedən mühacirlərin sayı xeyli artır. Onların əsas hissəsini yəhudilər təşkil edirdi (5, 114-123). ABŞ-dakı yəhudi əhalisinin sayı 1880-ci ildə 250 min idisə, 1914-cü ilədək artaraq 3 milyon təşkil edir və bu artımın 71,5%-i Rusiya imperiyasından gələnlərin payına düşürdü (6, 117). Məhz onlar Rusiyaya qarşı mənfi fikirlərin yaranmasına səbəb oldular. Bu isə yəhudilərin mövqeyinin güclü olduğu Amerika işgüzar dairələrinin Rusiya ilə əməkdaşlığı inkişaf etdirməsinə mane olurdu. Rusiya hökuməti də siyasi repressiyaları sərtləşdirir və Amerika yəhudilərinin ölkəyə daxil olmasını məhdudlaşdırmaq üçün viza tətbiq edir ("Pasport münaqişəsi"). Rusiyanın bəzi regionlarında bu dövrdə yəhudilərə qarşı talanların sayı artmışdı. 1904-cü ilin yanvar ayında Rusiyanın Birləşmiş Ştatlardakı səfiri A.P.Kassini (1905-ci ildən onu baron R.R.Rosen əvəz etdi - S.M.) Sankt-Peterburqa göndərdiyi məruzəsində yazırdı ki, Ruzvelt və dövlət katibi Heyin fikirlərinin təsiri altında "bizə qarşı (Rusiyaya qarşı - S.M.) Amerika Birləşmiş Ştatlarının münasibəti hər gün daha çox mənfi və etimadsız olur" (2, 326).

İkincisi, Rusiya və ABŞ arasında ikitərəfli əlaqələrin inkişafına müəyyən qədər mane olan problemlərdən biri də bu ölkələrin eyni malların ən böyük ixracatçısı (kənd təsərrüfatı məhsullarının, xüsusilə taxıl və neft) kimi dünya bazarlarında bir-biri ilə rəqabət aparmaları, təbiidir ki, onların maraqlarının tez-tez toqquşmasına səbəb olurdu.

İkitərəfli münasibətlərin gərginləşməsində ABŞ-ın 1905-ci il Birinci rus inqilabını dəstəkləməsi də müəyyən rol oynamışdı. ABŞ hökuməti Rusiya imperiyasını demokratiyanın inkişafına mane olmaqda ittiham edirdi.

Yuxarıda qeyd olunanlara baxmayaraq, Rusiyanın da daxil olduğu Antantanın formalaşması zamanı ABŞ ilə münasibətlər bir qədər yaxşılaşmışdı. ABŞ-ın Avropa dövlətlərinin işlərinə qarışmamaq siyasəti yürütməsinə baxmayaraq, Vaşinqton Antantanı dəstəkləyirdi. Bu isə ABŞ-da Rusiyaya qarşı münasibətin yumşalmasına səbəb oldu. Bundan əlavə ABŞ-ın iş adamları Rusiya bazarından avropalı rəqibləri tərəfindən sıxışdırıldıqları üçün hökumətlərini Rusiya ilə münasibətləri yaxşılaşdırmağa məcbur edirdilər. Təsadüfi deyil ki, 1913-cü ildə Rusiya və ABŞ arasında yeni ticarət müqaviləsinin bağlanması ücün danışıqlar başlanır. Lakin danışıqlar uğursuz olur. Çünki 1910-cu ildə Çində böyük iqtisadi layihələrin maliyyələşdirilməsi üçün beynəlxalq bank konsorsiumunun yaradılması Rusiya hökumətini narahat edirdi. Sankt-Peterburqda bunu Qərb və ABŞ-ın Rusiyanı Uzaq Şərqdən sıxışdırmaq məqsədi kimi görürdülər (6, 120).

Bu dövrdə Rusiya 1905-ci il inqilabından sonra Amerikaya qaçanların ekstradisiyasını istəyirdi, bu da Amerika KİV-də Rusiya əleyhinə çıxışların artmasına səbəb oldu (Rusiyanın ABŞ-kı səfiri Y.P.Bahmetyev bu hadisələr haqqında dəfələrlə çara məlumat vermişdi - S.M.). U.Taft administrasiyası Rusiyanın yeritdiyi daxili siyasətə olan mənfi münasibətini bildirmək üçün

1913-cü ildə Rusiyaya verilən bəzi imtiyazları ləğv etdi (6, 118). Demokrat partiyasının yeni lideri V.Vilsonun 1912-ci ildə ABŞ prezidenti seçilməsi Rusiya-ABŞ münasibətlərinin normallaşması prosesini daha da çətinləşdirdi.

## ƏDƏBİYYAT


1. История России XVIII-XIX вв. /Под ред. Л.В.Милова. М.: Эксмо, 2008, 784 с.
2. Иванян Э.А. История США. М.: Дрофа, 2004, 576 с.
3. Кузнецова О.Н. Дальний Восток и развитие русско-французских отношений в 1902-1905 гг. // Вопросы истории, № 3, 2009, 29-47 с.
4. Лукоянов И.В. Порт-Артур в политике России (конец XIX в.) //Вопросы истории, № 4, 2008, 49-66 с.
5. Миндлин А.Б. Еврейский вопрос в деятельности Н.П.Игнатьева //Вопросы истории, № 11, 2006, 114-123 с.
6. Печатнов В.О., Маныкин А.С. История внешней политики США. М.: Международные отношения, 2012, 672 с.


## РОССИЙСКО-АМЕРИКАНСКИЕ ОТНОШЕНИЯ НА РУБЕЖЕ XIX-XX вв.


**С.О.МУСТАФАЕВА**


## РЕЗЮМЕ


Начиная с конца XIX в. началось постепенное ухудшение российско-американских отношений. Определяющими факторами, влияющими на российско-американские отношения на рубеже XIX-XX вв., стали столкновение политических и экономических интересов на Дальнем Востоке и в Маньчжурии, враждебная позиция США по отношению к России во время русско-японской войны 1904-1905 гг. и первой русской революции 1905-1907 гг., а также вопрос об эмиграции российских евреев в США.



**Ключевые слова:** Россия, США, отношения, Дальний Восток, Маньчжурия


## RUSSIAN-AMERICAN RELATIONS AT THE TURN OF THE XIX-XX CENTURIES


**S.O.MUSTAFAYEVA**


## SUMMARY


From the end of the XIX century, there was observed a gradual deterioration in Russian-US relations. The clash of political and economic interests in the Far East and Manchuria, hostile US stance toward Russia during the Russian-Japanese war of 1904-1905 and the first Russian revolution of 1905-1907, as well as the question of emigration of Russian Jews in the United States became the determining factors that affected US-Russian relations at the turn of the XIX-XX centuries.



**Key words:** Russia, the United States, the relationship, the Far East, Manchuria